

Dəmir Çeşməli

# Görüşə gəlmişəm ay görüş yerim

## Özünə çəkdin

Görüşə gəlmişəm ay görüş yerim,
İzimi izləyib izinə çəkdin.
Bələndə badırğa düşdü gəncliyim,
Halını soruşub sözəmi çəkdin.

Dağlar məni süzdü yad qonaq kimi,
Çovğun üstələdi doğanaq kimi,
Yaş gəldi gözümə soğanaq kimi,
Şöləsin çiləyib üzünə çəkdin.

Cığırlar şütüyüb dolaşıq düşdü,
Kim bilir neçəsi necə ğörüşdü?
Çıxan çoxdan çıxıb,girən girişdi,
Nər kəsi sınağa,düzünə çəkdin.

Yaxşılıq elədin yadına saldın,
Acımı döndərib dadına saldın,
Tüstülü kösöymü oduna saldın,
Sarılıb boynuma özünə çəkdin.

## Görmüşəm səni

iy əymişəm gözümdə mən,
Sözə baxıb sözümdə mən,
Qəhrəman dözümdə mən,
Çoxumda görmüşəm səni.

Dərdin qurula-qurula,
Yolu yorula-yorula.
Gəldin durula-durula,
Axımda görmüşəm səni.

Qucaq-qucaq məst olursan,
Hallanırsan süst olursan,
Heykəlləşib büst olursan,
Yuxumda görmüşəm səni.

Səhər-səhər,axşam-axşam,
Adına şam yandırmışam.
Körpüləri yandırmışam.
Yoxumda görmüşəm səni.

***

Gəzdiyim düzəngahlar,
Sıralanıb sıram üstə.
Ünümlə gedirə ki,
Əvvəli yox,sonu yox.
Dərə-dərə içində,
Yatmağındadı ğecə.
Aşırımlar təklənib,
Anasının təkimi.
Dərəyə enə bilmir,
Asılıbmış zirvədən.
Sular axmağında,
Minnəti yox kimsədən.
Zirvənin ismarıcın,
Aparır dəniz üçün.
Bala-bala axan çay,
Ana sorağındadır.
Sığınır dərə içinə,
Doğan bilir dənizi.
Dənizdi aşağısı,
Yuxarısı zirvədi.
Əiim ətəyindəsə,
Zirvə mənimkidi.
Zirvəsən əl yetməzdə,
Baxıram uzaqlardan.
Axan çayam gedirəm,
Dəniz yaxınlığına.

## Gedirəm

Baxdığım baxdı tuşladı,
İslatdı ehmal yaşladı.
Baxtının daşın daşladı,
Oxunu görüb gedirəm.

Gecənin sabahı gəlməz,
Savabın günahı gəlməz,
Sevdamın öz ahı gəlməz,
Çoxunu görüb gedirəm.

Sərgisini sərgilədim,
Yürgəyini yürgələdim.
Xəyalında mürgülədim,
Yoxunu görüb gedirəm.

## Qurtardım

Dərələdim dərə keçdim,
Ov hürkütdüm bərə keçdim,
Keçdim, sənə görə keçdim,
Keçdim, zülümnən qurtardım.

Səmtində izləntim vardı,
De,bəlkə gizləntim vardı?
Yaş üstə gözləntim vardı,
Axdı, gölümnən qurtardım.

Sular daşdi bilinmədi,
Yanı daşdı bilinmədi,
Yaşı yaşdı bilinmədi,
Batdım, çölümnən qurtardım.

Yaxşımı yamana verdim,
Nağdımı gümana verdim,
Bərəmi dumana verdim,
Özcə əlimnən qurtardım.

Sövdə dəmini unutdum,
Dəmin kəmini unutdum,
Eşqin himini unutdum,
Solğun gülümnən qurtardım.

Sonaladım sonaları,
Yaşamışdim son sonları.
Tez unutdum o anları,
Öldüm ölümnən qurtardım.

## İstəyirəm

Yol alıb düzüynən gəldim,
Ot basmış iziynən gəldim,
O üz, bu üzüynən ğəldim,
Baxıb, getmək istəyirəm.

Dərə içi ləngimişəm,
Yoxuş üstü təngimişəm.
Yana-yana səngimişəm,
Çıxıb, getmək istəyirəm.

Zaman-zaman qurulmuşam,
Yatağımda durulmuşam.
Dayanmaqdan yorulmuşam,
Axıb,getmək istəyirəm.

Üzümə dayanıb duran,
Öze yava qurğu quran.
Aralıqdı ara vuran,
Yıxıb, getmək istəyirəm.

***

Daraşıb öz ovuna,
Əlinin duzu yoxmuş.
Dolusu gəlib çıxmır,
Boşudu gülümsəyən.
Gülür yaş giləsində.
İsladır od-ocağı,
İstisi özü boyda.
Göz dikib yol üstünə,
Nifini tökür yenə.
Gözündə kin qaynayır,
Qaynadır qazanında.
Hər şey üstüörtülü.
Əlləri əl axtarır,
Tapmır yerli yerində.